# İki böyük Peyğəmbərlər, hz.İsa (ə.s) və hz.Məhəmməd (s.ə.v) arasında 571 il vardır, Hz.Mehdi (ə.s) da imam Rəbbani həzrətlərindən təxminən 400 il sonra gələcəkdir

Bəziləri hz.Mehdi (ə.s)-ın İmam Rəbbani həzrətlərindən təxminən 400 il sonra gəlməsini, İmam Rəbbaninin dəyərinin azalması ilə əlaqələndirirlər və hz.Mehdi (ə.s)-ın İmam Rəbbanidən 1000 il sonra gəlməyini iddia edirlər. Halbuki Hz.Mehdi (ə.s)-ın İmam Rəbbani Həzrətlərindən təxminən 400 il sonra gəlməsi, Rəbbani həzrətlərinin dəyərini, qiymətini azaldacaq bir səbəb deyil. **Allah, Peyğəmbərimiz (s.ə.v)-i böyük iradəyə sahib olan peyğəmbər hz.İsa (ə.s)-dan yalnız 571 il sonra göndərmişdir. hz.İsa (ə.s)-dən qısa bir müddət sonra, yeni bir şəriət və kitabla hz.Məhəmməd (s.ə.v) gəlmişdir. Yəni iki böyük peyğəmbər arasında 571 il vardır.** Hz.Mehdi (ə.s) da İmam Rəbbani Həzrətlərindən təxminən 400 il sonra gələcəkdir. Onsuz da bunu İmam Rəbbani Həzrətləri özü şəxsən açıqlamışdır, yəni Hz.Mehdi (ə.s)-ın Peyğəmbərimiz (s.ə.v)-in vəfatından 1000 il keçdikdən sonra gələcəyini söyləmişdir:

Bu ümmətin axırları **İKİNCİ MİN İLİN ƏVVƏLİNDƏ** başlayar**. YƏNİ RƏSULULLAH ƏFƏNDİMİZİN VƏFATINDAN SONRA...** Şəriətin təsdiq xüsusiyyətləri, millətin yenilənməsi (yəni Quran əxlaqının tam olaraq tətbiq olunması və islam aləminin yenilənməsi) **BU İKİNCİ MİN İLDƏ OLACAQ. BU İDDİANIN DOĞRULUĞUNA, İSANIN, MEHDİNİN BU MİN İL İÇİNDƏ (YƏNİ PEYĞƏMBƏRİMİZ (S.Ə.V-İN ) VƏFATINDAN SONRAKI MİN İL ƏRZİNDƏ) GƏLİŞİNƏ ŞAHİD OLACAQSINIZ.** (Mektubatı Rəbbani, səh. 261)

Burada İmam Rəbbani çox açıq və aydın şəkildə **ÖZ VƏFATINDAN SONRA DEYİL, PEYĞƏMBƏR ƏFƏNDİMİZ (S.Ə.V)-İN VƏFATINDAN SONRA** deyir.

İmam Rəbbani Həzrətlərinin də söylədiyi kimi**, İslam aləminin sonu ikinci min ilin əvvəlində başlayar və İmam Rəbbani Həzrətləri də, hz.İsa (ə.s) da, hz.Mehdi (ə.s) da Peyğəmbərimiz (s.ə.v) -in vəfatının ardından ikinci min ildə olacaqlar.**

https://www.harunyahya.info/az/meqaleler/iki-boyuk-peygemberler-hzisa-es-ve-hzmehemmed-sev-arasinda-571-il-vardir-hzmehdi-es-da-imam-rebbani-